BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2009

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ SƏNƏDLƏRİNDƏ JURNALİSTLƏRİN HÜQUQ VƏ AZADLIQLARI

**S.R.MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*

Müasir dövrdə xalqlar və ölkələr arasındakı mədəni, iqtisadi, siyasi, sosial əlaqələrin intensiv inkişafında beynəlxalq təşkilatlar əvəzsiz rol oynayır. Hal-hazırda belə təşkilatların sayı yüzdən artıqdır və onların sıraları ilbəil artır. Bu təşkilatların arasında öz nüfuzu və kütləviliyi ilə seçilən beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatıdır.

Bu təşkilatın bütün dünyada sülhün, stabilliyin qorunmasına, beynəlxalq əməkdaşlığın genişlənməsinə, müxtəlif ölkələrə humanitar yardımın göstərilməsinə, mövcud olan münaqişələrin qarşısının alınmasına dair fəaliyyəti ilə çoxlarımız tanışıq. Amma BMT-nin başqa sahələrdə gördüyü işlər haqqında və hər bir insanın həyatına təsir edən fəaliyyəti haqqında Azərbaycanda çox az yazılıb-danışılır və bunun nəticəsində vətəndaşlarımız həddən artıq məlumatsızdırlar. Butovlükdə BMT-nin fəaliyyəti ədalətə, yüksək düşüncəyə, qarşılıqlı hörmətə, stabilliyə əsaslanan dünya düzəninin qurulmasına yönəlib; elə bir şəraitin yaradılmasına ki, orada hər bir insanın bacarığından və imkanından olduqca geniş istifadə olunsun və bütün məsələlərin fövqündə haqq-ədalət meyarı dayansın. Tez-tez deyirlər ki, əgər BMT olmasaydı, onu düşünüb yaratmaq lazım idi. Bu həqiqətən belədir. Çünki Birləşmiş Millətlər Təşkilatı bəşəriyyətin qarşılaşdığı problemlərin həlli mərkəzinə çevrilib. BMT elə bir əvəzsiz hökumətlərarası beynəlxalq təşkilatdır ki, burada dünya dövlətləri öz aralarında olan mübahisələri, problemləri müzakirə edib yoluna qoyurlar; üstəlik insanların gündəlik qarşılaşdığı təxirəsalınmaz məsələlərin həllini həyata keçirirlər.

BMT 24 oktyabr 1945-ci ildə beynəlxalq əməkdaşlıga nail olmaq, sülhü qorumaq və kollektiv təhlükəsizliyi təmin etmək əzmkarlığı ilə çalışan 51 ölkə tərəfindən yaradılmışdır. Bununla belə qeyd etmək lazımdır ki, BMT-nin yaranması prosesi İkinci dünya müharibəsi illərindən başlanır. Antihitler koalisiyası ölkələrinin xarici işlər nazirlərinin 1943-cü il Moskva konfransı, 1944-cü ildə ABŞ-ın Dumbarton-Oks şəhərində keçirilən konfrans, 1945-ci il koalisiya ölkələri başçılarının Krım konfransı müxtəlif sosial-iqtisadi sistemə malik olan dövlətlər arasında beynəlxalq əməkdaşlığın mümkünlüyünü açıq şəkildə nümayiş etdirdi və onların bir təşkilatda birləşməsini zəruri etdi.

Hal-hazırda Birləşmiş Millətlər Təşkilatında dünyanın 191 ölkəsi birləşir, yalnız bir necə kiçik ölkə (Vatikan, Tayvan və s.) bu mötəbər qurumdan kənarda qalıb. Hər bir ölkə BMT-yə üzv olarkən öz üzərinə onun Nizamnaməsindən irəli gələn öhdəlikləri götürür. Bu bir növ beynəlxalq münasibətləri tənzimləyən prinsipləri özündə etiva edən beynəlxalq sazişdir. 26 iyun 1945-ci il San-Fransisko konfransında qəbul olunmuş Nizamnaməyə görə Birləşmiş Millətlər Təşkilatı öz fəaliyyətində dörd məqsədə xidmət edir: beynəlxalq sülhü və təhlükəsizliyi qoru-

maq, millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, beynəlxalq problemlərin həllində qarşılıqlı əməkdaşlığı təmin etmək və insan haqlarına hörməti təşviq etmək.

BMT, ümümdünya hökuməti rolunda olmasa da, bütün səylərini beynəlxalq münaqişələrin nizamlanmasına yönəldir və hər bir insanın həyatına təsir edən məsələlərin siyasi yönümünü işləyib hazırlayır. Birləşmiş Millətlər Təşkilatı aşağıdakı quruluşa malikdir:

- BMT-nin özəyi altı əsas qurumdan ibarətdir – Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Himayə məsələləri üzrə Şura, Beynəlxalq Məhkəmə və Katiblik. Bu qurumlar BMT-nin Nyu-Yorkdakı Mərkəzi mənzil-qərargahında yerləşir, yalnız Beynəlxalq məhkəmə Hollandiyanın Haaqa şəhərində yerləşir;

- BMT-nin ixtisaslaşdırılmış qurumları YUNESKO-BMT-nin elm, təhsil, mədəniyyət və kommunikasiya məsələləri üzrə qurumu; İntellektual mülkiyyət üzrə ümumdünya Təşkilatı; Ümumdünya Səhiyyə Təşkilatı və bir çox başqaları.

- BMT-nin xüsusi Proqramları, Fondları və s.

İxtisaslaşdırılmış qurumların fəaliyyəti BMT-nin Mərkəzi qərargahı ilə bağlanmış xüsusi anlaşmalar vasitəsilə tənzimlənir. Bununla belə bu qurumlar müəyyən muxtariyyata və özünüidarəyə də malikdirlər.

BMT-nin səyi nəticəsində insan haqlarına aid problemlər bəşəriyyəti daha çox narahat edən məsələyə çevrilib. İndiyə qədər BMT-nin birbaşa himayəsi ilə insanların siyasi, iqtisadi, sosial, mədəni, vətəndaş hüquqları ilə bağlı 80-dən artıq beynəlxalq müqavilələr bağlanıb. Bu sazişlər dünya birliyi çərçivəsində insan haqlarını hərtərəfli təşviq edir və bu sarsılmaz hüquqların bütün ölkələr tərəfindən qəbul olmasında başlıca rol oynayır.

Demokratik hüquq və azadlıqlarının önündə məhz informasiya azadlığı dayanır. 1946-cı ildə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının ilk iclasında hələ insan haqları üzrə beynəlxalq müqavilələr imzalanmamışdan əvvəl 59(1) saylı qətnamə qəbul edilmişdir. Qətnamədə qeyd edilirdi ki, «informasiya azadlığı insan haqlarının özülüdür və Birləşmiş Millətlər Təşkilatının yurisdiksiyasında olan bütün başqa azadlıqların ilk şərti kimi çıxış edir». Sənəddə informasiya azadlığı istisnasız olaraq istənilən yerdə və istənilən vaxtda «xəbəri yığmaq, ötürmək və nəşr etdirmək hüququ» kimi təsbit edilir.

1947-ci ildə BMT-nin insan haqları üzrə alt komitələrindən biri olan informasiya azadlığı üzrə Alt Komitə bu tərifə yeni çalarlar gətirdi və onu bir qədər də genişləndirdi. İnsan haqları üzrə Komitəyə təqdim olunan məruzə belə də adlanırdı: «İnformasiya azadlığı konsepsiyasına daxil edilməsi zəruri olan hüquqlar, öhdəliklər və onların tətbiqi haqqında bəyanat».

Sənəddə deyilirdi: «İnformasiya azadlığı heç bir əngəl olmadan hər hansı bir düşüncədə olmaq, öz düşüncəndə qalmaq, dövlət sərhədlərindən asılı olmayaraq istənilən vasitə ilə qadağasız bilgiləri və ideyaları axtarmaq, almaq və ötürmək nəzərdə tutur. İlk əvvəl informasiya vasitələrinin əməkdaşları üçün (əgər praktiki mülahizələr imkan verirsə başqaları üçün də) hazırki azadlığa informasiya mənbələrinə ən geniş giriş əldə etmək hüququ, bunun axtarışı üçün əngəlsiz səyahət etmək və həmçinin düzgün istifadə olunan informasiya mənbələrini müdafiə etmək daxildir» (1, 47).

İnformasiya azadlığı demokratiyanın bərqərar olunması və qərarların qəbul edilməsi prosesində ictimayyətin iştirakını təmin etmək üçün

vacibdir. İnformasiyaya giriş olmadıqda və öz fikrini azad ifadə etmək imkanı gerçəkləşmədikdə vətəndaşlar istənilən səsvermədə iştirak hüququnu həyata keçirə bilmirlər və qərarların qəbulu prosesində iştirak etmirlər. Ona görə də ifadə azadlığı yalnız özünə hörmət hissindən irəli gəlmir, o həm də ictimai və siyasi həyatda iştirak etmək, öz məsuliyyətini dərk etmək və demokratiya qurmaq üçün vacibdir. İfadə azadlığı sahəsindəki pozuntular əksər hallarda başqa qanunsuzluqlarla bir səviyyədə tutulur – ilk növbədə yığıncaq və birliklər yaratmaq azadlıqları sahəsindəki qadağalarla.

İfadə azadlığı və informasiya vasitələrinin sərbəstliyinin bir-birlərinə bağlılığı çox vacib və əhəmiyyətlidir. Çünki informasiya vasitələri bilgiyə giriş əldə etmək və yaymaq hüququna istisnasız malik olmasalar da, bu haqların gerçəkləşməsində aparıcı amillərə çevrilirlər.

İnformasiya azadlığı ilə informasiya vasitələrinin sərbəstliyi arasında olan ayrılmaz bağlılıq beynəlxalq təşkilatlar tərəfindən də təsbit edilmişdir. Bu təşkilatlara insan haqları üzrə sazişlərin tətbiqi və izahı həvalə edilmişdir. Mətbuatın fəaliyyətində gerçəkləşən sərbəst informasiya axını kömək edir ki, informasiya vasitələri ictimaiyyətin «gözətçi köpək» funksiyasını həyata keçirsin, vətəndaşlar isə məlumatlı olsunlar.

Nəzərə alsaq ki, jurnalist peşəsi informasiya axtarmaq, almaq və yaymaq hüququ üzərində qurulur və informasiya vasitələri bu haqqın həyata keçməsində başlıca amilə çevrilir, onda bu sahədə ortaya atılan istənilən maneə sərbəst informasiya axınına qarşı yönəlmiş təhdiddir.

İnformasiya azadlığının hüquqi cəhətdən çox vacib olduğunu sübut etmək üçün bir çox ölkələr, o cümlədən Yaponiya, Hindistan, Cənubi Koreya, Böyük Britaniya, Meksika, Tailand, Fidci, əksər Mərkəzi və Şərqi Avropa ölkələri son illərdə bu hüququ həm hərəkətə gətirirlər, həm də müvafiq qanunvericilik aktlarının qəbulunu hərtərəfli təşviq edib sürətləndirirlər. Beləliklə onlar əvvəlki illər ərzində bu cür qanunlar qəbul etmiş ölkələr sırasına daxil olurlar. Qeyd etmək lazımdır ki, belə qanunvericilik aktları İsveç, ABŞ, Finlandiya, Hollandiya, Avstraliya və Kanadada artıq qəbul olunub. İnformasiya azadlığı hüququ Birləşmiş Millətlər Təşkilatı tərəfindən ifadə sərbəstliyi amili kimi qəbul edilib.

Deməli Almaniyada qəzet işçisi, Türkiyədə telerejissor, Macarıstanda fotojurnalist, Azərbaycanda jurnal naşiri – bunların hamısını peşəkarlıq birləşdirir. Bunların səyi nəticəsində informasiya vasitələri fəaliyyət göstərir. Bu peşəkarlar öz ölkələrinin milli konstitusiyaları və qanunları əsasında çalışırlar. Amma bununla yanaşı onların fəaliyyəti daha geniş normativ aktlara uyğunlaşır. Alman qəzetçisi üçün bu - Avropa İnsan haqları Konvensiyası, Avropa Birliyinin qərarları və ATƏT-in sənədləri olacaq. Türkiyə televiziya rejissoru üçün Avropa Birliyinin sənədləri hələ keçərli deyil, çünki onun ölkəsi bu beynəlxalq qurumda hələ təmsil olunmayıb. Eləcə də Azərbaycan jurnal naşiri üçün. Amma Türkiyə telerejissoru və Azərbaycan naşiri Avropa İnsan haqları Konvensiyasından və ATƏT-in qərarlarından hərtərəfli yararlana bilərlər. Bununla belə, həm Türkiyə hökuməti, həm də Azərbaycan rəhbərliyi müxtəlif formada təsdiq ediblər ki, informasiya vasitələrinin sərbəstliyi və ifadə azadlığı sahəsində ən yüksək beynəlxalq standartlara riayət etməyə hazırdırlar və mövcud olan prinsipləri qoruyacaqlar. Odur ki, Türkiyə telerejissoru və Azərbaycan jurnal naşirinin fəaliyyəti ilə bağlı geniş beynəlxalq normativ məkan var.

Qeyd etmək lazımdır ki, informasiya vasitələrinin azadlığına dair hüquq eyniliklə bütün insanlara da aiddir. Çünki bu, dünyanın hər ye-

rində istifadə edilən birbaşa söz və informasiya azadlığı hüququndan irəli gəlir.

Aydındır ki, jurnalistin peşə fəaliyyəti üçün yalnız informasiya almaq və ötürmək azadlığı hüququ kifayyət edərdi. Amma bütün beynəlxalq normativ aktlarda jurnalist, cəmiyyətin başqa üzvlərindən kənarda götürülmür. Hətta informasiya azadlığı haqqında daha yaşlı qanun hesab olunan İsveçin 1766-ci ildə qəbul etdiyi (başqa ölkələri iki əsr qabaqladığı) normativ aktda informasiyaya giriş hüququ yalnız informasiya vasitələrinə məxsus olan azadlıq kimi qəbul edilmir. Dünyada informasiya azadlığı haqqında qəbul olunan qanunların əksəri yalnız KİV-lərin inkişafı tələbatından irəli gəlməmişdir. Bu qanunvericilik aktlarında bilgi, məlumat sərbəstliyinə mətbuatın xüsusi şıltaqlığı və inadkarlığı kimi baxılmır. Sənədlərdə informasiya vasitələrinin bilgiyə olan hüququ eyniliklə bütün ölkə vətəndaşlarının (əcnəbilərin də) informasiyaya giriş hüququnun tərkib hissəsi kimi qəbul olunur.

İnformasiya azadlığı və ifadə sərbəstliyinin beynəlxalq-hüquqi təminatına dair Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunan sənədlər içərisində ən aparıcı yeri İnsan haqları üzrə Ümümdünya Bəyannaməsi tutur. Bu sənəd 10 dekabr 1948-ci ildə BMT-nin Baş Assambleyasında qəbul olunmuşdur və 217A (III) saylı qətnamə ilə qüvvəyə minmişdir. İnsan haqları üzrə Ümümdünya Bəyannaməsi söz azadlığının norma və prinsiplərini müəyyənləşdirən hüquqi-normativ baza kimi çıxış edir. Faktiki olaraq BMT bu qərarla o dövrədək insan haqları sahəsində mövcud olan qadağalar hüququna ağır zərbə vurdu, prinsip etibarilə yeni yanaşma sistemini və bunun praktiki tətbiqi mexanizmini ortaya qoymuş oldu. İnsan haqları üzrə Ümümdünya Bəyannaməsi özündə bütün insanlara aid olan əsas hüquq və azadlıqları ehtiva edirdi: o cümlədən yaşamaq, azad və sərbəst olmaq haqqını, vətəndaşlıq hüququnu, azad düşüncəyə sahib olmaq, vicdan azadlığına malik olmaq, təhsil almaq, ictimai əməklə məşğul olmaq, ölkənin idarəedilməsində iştirak etmək hüququnu. Əslində İHÜB bütün xalqlar və dövlətlər üçün bir növ qarşıda duran vəzifələr sistemidir. Burada göstərilən məsələlərin həllinə yanaşma tərzi öz növbəsində hər hansı BMT üzvünün insan haqlarına dair beynəlxalq normalara hörmət etməsinin və sadiq olmasının meyarı kimi çıxış edir.

Hal-hazırda bütövlükdə insan haqları, konkret olaraq informasiya, söz, mətbuat azadlığı sahəsində BMT tərəfindən lazımı norma və prinsirlərin işlənib hazırlanması demək olar ki, başa çatmaq üzrədir. Ona görə də, Birləşmiş Millətlər Təşkilatı öz fəaliyyətində əsasən qəbul olunmuş prinsipləri praktiki olaraq həyata keçirmək üzərində çalışır. Göstərilən sahədə BMT-nin bütün fəaliyyət sistemini əlaqələndirən insan haqqları üzrə Ali Komissar üzv ölkələrin hökumətləri ilə əməkdaşlıq edir və yüksək amalların dolğun formada həyata keçməsi məqsədilə onlara yardım göstərməyə çalışır ki, insan haqları sahəsində pozuntuların qarşısı alınsın, baş verdikdə isə hərtərəfli araşdırılıb ölçü götürülsün.

Söz azadlığına dair fundamental hüquq İnsan haqları üzrə Ümümdünya Bəyannaməsinin 19-cu maddəsi ilə müdafiə olunur. Bu maddə BMT-yə üzv olan ölkələrin üzərinə insan hüquqları və azadlıqları ilə bağlı müəyyən sanballı öhdəliklər qoyur. 19-cu maddədə qeyd olunur ki, «hər kəsin düşüncə azadlığı və düşündüyünü azad ifadə etmək haqqı var, bu haqqa heç bir əngəl olmadan öz düşüncəsində qalmaq və dövlət sərhədlərindən asılı olmayaraq hər hansı vasitə ilə bilgiləri axtarmaq, almaq və yaymaq azadlığı daxildir» (2, 16).

Qeyd etmək lazımdır ki, söz azadlığının müdafiəsi uğrunda fəa-

liyyət göstərən ən mötəbər beynəlxalq qeyri hökumət təşkilatlarından biri məhz Article 19 (19-cu Maddə) adlanır.

Söz azadlığının birinci komponenti – informasiyanı azad, sərbəst axtarmaq və əldə etmək imkanıdır. Bu amillər qrupuna aşağıdakı göstəricilər daxildir: informasiyaya sərbəst giriş, o cümlədən hökumət məlumatlarına; qanunverici, icraedici və məhkəmə orqanlarının şəffaflığı; jurnalistlərin və vətəndaşların sorqularına bütün hakimiyyət qollarının reaksiyası, jurnalistlərin akreditə qaydalarının demokratikliyi və s. Söz azadlığının ikinci komponenti – informasiyanı azad, sərbəst istehsal etmək imkanıdır. Bu amil kütləvi informasiya vasitələrinin qeydiyyatının yerli xüsusiyyətlərindən, yerli verqi və digər qanunvericilikdən, KİV-in iqtisadi fəaliyyətini tənzimləyən qanunlardan asılıdır. İnformasiya istehsalı azadlığının səviyyəsini müəyyənləşdirən göstəricilərin biri – dövlət və özəl kütləvi informasiya vasitələrinin keyfiyyət və kəmiyyət nisbətidir. Buraya həm də kütləvi informasiyanın dövlətləşdirilməsi, KİV-in təmərküzləşməsi dərəcəsi, ideoloji müxtəlifliyin mövcudluğu və s. aiddir. Mövcud göstəricilərin başqa bir qrupunu – KİV-in istehsalına yönələn giriş azadlığı təşkil edir: həm çap KİV vasitələrinin, həm də elektron. Üçüncü komponent – informasiyanı yaymaq sahəsində olan azadlıq və sərbəstlikdir. Burada göstəricilər kimi abunə yazılmaq qaydalarının yerli xüsusiyyətləri, mətbuat yayımının lisenziyalaşma şərtləri, adambaşına düşən köşklərin sayı, çap məhsulun çatdırılmasında və elektron KİV-lərin yayımı sahəsində inhisarçılığın mövcudluğu və s. çıxış edir.

## ƏDƏBİYYAT


1. Сборник международных договоров. Нью-Йорк. ООН. 1989, 784 с.
2. Məmmədli Z., Hacili R., Əliyev İ. Media huququ. Baki: Hüquq ədəbiyyatı, 2006, 431 s.


## ПРАВА И СВОБОДЫ ЖУРНАЛИСТОВ В ДОКУМЕНТАХ ОРГАНИЗАЦИИ ОБЪЕДИНЕННЫХ НАЦИЙ


С.Р.МАМЕДОВ



### РЕЗЮМЕ

В статье рассматривается роль Организации Объединённых Наций в развитии средств массовой информации. Автор освещает и анализирует документы, посвящённые различным аспектам свободы слова и самовыражения. Внимательно и всесторонне изучаются проблемы доступа к официальной информации, защиты прав журналистов, а также самих средств массовой информации. Некоторые документы вводятся в научный оборот впервые.


## JOURNALIST'S RIGHTS AND THEIR FREEDOM IN UNO DOCUMENTS


S.R.MAMMADOV



### SUMMARY

The article deals with the role of the United Nations Organization in the development of mass media. The author elucidates and analyses the documents devoted to different aspects of freedom of speech and free expression. The problems of the access to official information, the protection of journalists' rights as well as the rights of mass media are studied comprehensively and attentively. Several documents are included in the scientific circulation for the first time.